Medeni-maarif.- 2007.-№.12.-S.16



# Bəşəriyyət üçün facie

Qeyri-hökumət təşkilatları Astara rayon mərkəzi kitabxanasının oxu zalında gənclərlə narkomaniyaya qarşı mübarizə mövzusunda görüş keçirmişdir.

Görüşü giriş sözü ilə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məzahim Hüseynov açmışdır.

Rayon İcra Hakimiyyəti Aparatının ictimai təşkilatlarla və siyasi partiyalarla iş şöbəsinin müdiri Azər Abdullayev mövzu ilə əlaqədar məruzə etmişdir. Məruzədə narkomaniyanın bəşəri faciə olmasından, «ağ ölümə» qarşı respublikamızda, o cümlədən rayonumuzda aparılan mübarizə tədbirlərindən, bu sahədə qeyri-hökumət təşkilatlarının rolundan, qarşıda duran vəzifələrdən söhbət açılmışdır.

Görüşdə Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Nazim Fərəməzov, rayon təhsil şöbəsi müdirinin müavini, YAP rayon təşkilatı gənclər birliyinin sədri Faiq Həsənov, rayon mərkəzi xəstəxana poliklinikasının müdiri Fuad Səmədov, Rayon Gənclər və İdman İdarəsinin rəisi Ərçə Əliyev, həmin idarənin rəis müavini İqrar Cəfərov, Astara Pedoqoji Texnikumunun direktor müavini Şükran Şabanov, şəhər 4 saylı orta məktəbin direktoru Mirzəfər Vahabzadə, rayon veteranlar şurasının sədri Nəriman Məmmədov, Qızıl Aypara cəmiyyəti rayon təşkilatının sədri Asif Hüseynquliyev, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı rayon komitəsinin sədri Laləzar Qurbanova, Əfqanıstan müharibəsi əlili Nizami Məmmədov və başqaları narkomaniyaya qarşı mübarizədə birgə fəaliyyətin zəruri olduğunu, gəncləri bu yoldan çəkindirmək üçün təbliğatın gücləndirilməsini diqqətə çatdırmışlar.